YADDAŞ

# BAĞIRSAQ İNFEKSİYALARI İLƏ YOLUXMA YOLLARI





***Bağırsaq infeksiyaları ilə yoluxma ağız vasitəsilə, qida və su qəbul edərkən baş verir. Törədicilər xəstə və bakteriyagəzdiricilərin ifrazatı - qusuntu kütləsi, sidiyi, nəcisi vasitəsilə xarici mühitə yayılır. Bağırsaq infeksiyalarının mikroorqanizmləri torpaqda, suda, həmçinin müxtəlif əşyaların (taxtadan düzəlmiş qələmlərin, mebellərin və s.) üzərində uzun müddət qalır.***

***Onlar aşağı temperaturun təsirinə davamlıdır, rütubətli mühitdə uzun müddət yaşayırlar. Süd məhsullarında, həmçinin ət qiyməsində, kiseldə, suda (xüsusilə, yay aylarında) daha tez çoxalırlar.***

***Müxtəlif bağırsaq infeksiyalarının, xüsusilə vəba ilə yoluxmanın əsas yolu sudur. Fleksner şiqellaları tərəfindən törənən dizenteriya da su vasitəsilə yayılır.***



***Aydındır ki, suyun çirklənməsi kanalizasiya və fekal qarışığı olan amillərdən baş verir. İsti iqlim şəraiti olan regionlarda iri çayların aşağı axın yerlərində suyun çirklənmə səviyyəsi xüsusilə yüksək olur.***

***Ərzaq məhsullarının çirklənməsi isə çirkli əllər və milçəklər vasitəsilə olur. Termiki işləmədən keçməyən***

***çirklənmiş ərzaq məhsullarının qəbulu daha təhlükəlidir.***

***Milçəklər ifrazatla qidalanaraq külli miqdarda mikrob qəbul edirlər. Milçəklərin üzərində on milyonlarla mikrob olur və onlar evdə, mətbəxdə, yeməkxanalarda qidaların üzərinə qonurlar. Bir milçəyin bağırsağından bir dəfəyə minlərlə dizenteriya bakteriyası ifraz edilir.***

***Şəxsi gigiyena qaydalarına riayət etməyən şəxslər, ilk növbədə, yoluxucu xəstəliklərə yoluxur və bağırsaq infeksiyalarının yayılmasına səbəb olurlar.***



Respublika Gigiyena və Epidemiologiya Mərkəzi
Sosial Gigiyena Monitorinqi şöbəsi
Tel: (012) 422-08-23